ISSN 2709-5096
E-ISSN 2789-0198

# *QAFQAZŞÜNASLIQ*
*elmi-nəzəri jurnal*

# *КАВКАЗОВЕДЕНИЕ*
*научно-теоретический журнал*

# *CAUCASUS STUDIES*
*scientific-theoretical journal*

**№1 (5), 2024**

**Bakı – 2024**

**UOT 32.019.57**

**Elnur Kəlbizadə**
*turix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri*
*kelbizadeh@gmail.com*
*ORCID iD: 0000-0001-5870-034X*
**https://doi.org/10.59849/2709-5096.2024.1.7**

# ERMƏNİSTAN VƏ XARİCİ ÖLKƏLƏRDƏKİ ARAŞDIRMA MƏRKƏZLƏRİNİN TƏDQİQATLARINDA NAXÇIVANA QARŞI ƏSASSIZ ƏRAZİ İDDİALARI

## Annotasiya

*Türk dünyası üçün geostrateji əhəmiyyətə malik olan Azərbaycanın Naxçıvan regionu tarix boyunca ən müxtəlif dövlət və imperiyaların diqqətini cəlb etmişdir.*

*XX əsrin əvvəllərində, Türkiyə ilə Qafqazın türk xalqları arasındakı bufer bölgə formalaşdırmaq, əlaqəni kəsmək məqsədi ilə yaradılmış Ermənistan Naxçıvanı ələ keçirməyə cəhd göstərmişdir. 1920-1921-ci illərdə Azərbaycan və Türkiyənin diplomatik səyləri nəticəsində Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq qorunub saxılanılmış və regionda türk varlığı mühafizə edilmişdir. Lakin, Ermənistanın Naxçıvana dair əsassız iddiaları azalmamışdır. Erməni millətçiləri tərəfindən Naxçıvana qarşı əsassız ərazi iddiaları həm sovet dövründə, həm də 1991-ci ildən sonra səsləndirilmişdir.*

*Məqalədə Naxçıvanla bağlı Ermənistanda və xarici ölkələrdə ictimai təşkilatlar tərəfindən həyata keçirilən fəaliyyətlər, araşdırma mərkəzlərində aparılan tədqiqatlar təhlil edilmişdir. Əsas məqsəd ermənilərin Naxçıvana qarşı əsassız iddialarını necə əsaslandırmağa çalışdığını aydınlaşdırmaq və tarixi saxtalaşdırma cəhdlərin faktlarla sübut etməkdir. Tədqiqatın əsas mənbə bazasını ermənidilli qaynaqlar təşkil edir.*

***Açar sözlər*:** *Azərbaycan, Ermənistan, Naxçıvan, tarix, türk, kilsə*

**Elnur Kalbizade**

# UNSUBSTANTIATED TERRITORIAL CLAIMS AGAINST NAKHCHIVAN IN RESEARCH CENTERS IN ARMENIA AND FOREIGN COUNTRIES

## Annotation

*The Nakhchivan region of Azerbaijan has held significant geostrategic importance in the Turkic geography and has attracted the attention of various states and empires throughout history. In the early 20th century, Armenia, established in the region to completely sever the land route between Türkiye and the Turkic peoples*

*of the Caucasus, also advanced claims over Nakhchivan and attempted to seize it. However, as a result of the diplomatic activities of Türkiye and Azerbaijan in the years 1920-21, Nakhchivan remained an integral part of Azerbaijan, and Turkish presence in the region was preserved. Yet, Armenia's claims over the region have not diminished. Baseless territorial claims against Nakhchivan by Armenian nationalists have been voiced both during the Soviet era and after 1991.*

*The article analyzes the activities carried out by social organizations in Armenia and abroad, as well as research conducted in research centers. The main objective is to determine how Armenians attempt to support their baseless claims over Nakhchivan and to reveal the truths against historical fabrications. The primary sources of the research consist of works by Armenian researchers and other Armenian sources.*

***Keywords:*** *Azerbaijan, Armenia, Nakhchivan, history, turkish, church*

**Giriş**

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan ölkənin siyasi və dövlətçilik tarixində xüsusi yer tutur. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasını Türkiyə ilə, Türkiyə Cümhuriyyətini isə Türk dünyası ilə bağlayan təbii körpüdür. Əlverişli təbii-coğrafi və geosiyasi mövqeyi bu regionun tarix boyunca müxtəlif dövlətlərin və imperiyaların hədəfinə çevrilməsinə səbəb olmuşdur. Naxçıvan bir tərəfdən ağır hərbi-siyasi sınaqlarla üzləşmiş, digər tərəfdən Azərbaycanda siyasi fikrin, dövlətçilik ənənələrinin formalaşdığı və qorunduğu əsas mərkəzlərdən birinə çevrilmişdir. Bu, xarici tədqiqatçıların diqqətini Naxçıvanın tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, əhalisinin etno-psixologiyasına cəlb etmişdir. Bu mənada Azərbaycan Respublikasına və Türkiyəyə qarşı düşmənçilik siyasəti yürüdən, regionda marağı olan güc mərkəzlərinin əlində təsir vasitəsinə çevrilən Ermənistanda, dünyanın müxtəlif ölkələrində ermənilərin nəzarətində olan tədqiqat mərkəzlərində Naxçıvanın tarixi, mədəniyyəti ilə bağlı təhlillər aparılır, onun tarixinin erməniləşdirilməsinə cəhdlər göstərilir. Ermənilər Naxçıvana olan əsassız iddialarını daha çox tarixi və mifoloji proseslər kontekstində əsaslandırmağa çalışırlar. Lakin aydındır ki, bu iddiaların kökündə tarixi məsələlərdən daha çox, siyasi, iqtisadi və geostrateji amillər, maraqlar dayanır.

1991-ci ildən sonra Qarabağdan fərqli olaraq Naxçıvana qarşı Ermənistan tərəfindən rəsmi səviyyədə ərazi iddiaları irəli sürülməmişdir. Lakin XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində erməni silahlı birləşmələri Naxçıvan Muxtar Respublikasının sərhədboyu ərazilərinə hücumlar təşkil etmiş, bəzi əraziləri, o cümlədən Sədərək rayonunun Kərki kəndini işğal etmişlər. Rəsmi səviyyədə iddiaların səsləndirilməməsinə baxmayaraq, Ermənistanda yarana biləcək əlverişli şəraitdə Naxçıvanın Azərbaycandan qoparılması üçün ideoloji iş aparılmışdır. Sovet dövründə Naxçıvanda yaşamış, müstəqilliyin bərpasından sonra isə könüllü surətdə

Ermənistanda yaşamağı seçmiş ermənilər bu ölkədə təşkilatlandırılmış, Naxçıvanla bağlı əsassız iddialarını əks etdirən "tədqiqatlar" aparılmış, müxtəlif məqalə və kitablar çap etdirilmiş, filmlər çəkilmişdir. Xüsusən bu cür fəaliyyətlər XXI əsrin ilk illərindən etibarən güclənmişdir.

Hazırda Ermənistanda bir tərəfdən Azərbaycanla sülhün əldə olunmasından danışılır, digər tərəfdən isə Azərbaycan ərazilərinə ermənilərin əsassız ərazi iddialarının səsləndirildiyi toplantılar keçirilir, tədqiqatlara dəstək verilir. Ermənilər arasında bu əsassız iddiaların yaşaması üçün təbliğati və ideoloji baza yaradılır.

Araşdırmada Ermənistanın və ermənilərin Naxçıvanla bağlı əsassız iddialarının, apardıqları fəaliyyətlərin öyrənilməsi üçün bir neçə məsələyə diqqət yetirilmişdir. Onlar aşağıdakılardır:

1. Ermənistanda Naxçıvanla bağlı ictimai rəyi formalaşdırmaq üçün yaradılmış ictimai-siyasi təşkilatların fəaliyyətləri;
2. Ermənistanda fəaliyyət göstərən tədqiqat institutlarının və mərkəzlərinin Naxçıvanla bağlı araşdırmaları;
3. Qriqorian kilsəsinin Naxçıvan təbliğatı;
4. Xarici ölkələrdəki tədqiqat mərkəzlərində işləyən erməni və qeyri-erməni alimlərinin Naxçıvanla bağlı tədqiqatları.

**Ermənistanda fəaliyyət göstərən ictimai təşkilatların Naxçıvanla bağlı iddiaların təbliğində rolu**

Ermənistanda Naxçıvanla bağlı ən fəal iş aparan təşkilatlardan biri Naxçıvan Ermənilərinin Vətənpərvərik Birliyidir. İlk dəfə Ermənistanda bu ad altında təşkilat 1920-ci ildə yaradılsa da sonradan o fəaliyyətini dayandırmışdır. Sovet İttifaqının süqutu ərəfəsində - 1989-cu ildə İrəvanda yenidən belə bir təşkilat yaradılmışdır və həmin təşkilat fəaliyyətini davam etdirir. Hazırda Naxçıvan Ermənilərin Vətənpərvərlik Birliyinin sədri Levon Vladimri Stepanyandır. O, Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunlarının ehtiyatda olan general-mayorudur. 1990-1991-ci illərdə Ermənistan Ali Sovetinin müdafiə, təhlükəsizlik və daxili işlər daimi komissiyasının üzvü, 1991-1993-cü illərdə Ermənistanın hərbi komissarı, 1993-cü ilin sentyabrında Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin Dövlət Sərhədinin Mühafizəsi Baş İdarəsinin rəisi, Sərhəd Qoşunlarının Komandanı olmuşdur.

2020-ci il müharibəsindən sonrakı dövrdə Naxçıvana əsassız ərazi iddialarını gündəmə gətirən əsas erməni terror-siyasi təşkilatlarından biri 2023-cü ilin avqust ayında yaradılmış "Girdiman-Şirvan-Naxçıvan Ümumerməni Birliyi"dir. Bu təşkilat guya adıçəkilən ərazilərdən didərgin düşmüş ermənilərin problemlərinin həlli bəhanəsi ilə yaradılmışdır [16]. Birliyin sədri Ermənistan Milli Assambleyasının deputatı Vilen Qabrielyandır. O, parlamentin Müdafiə və Təhlükəsizlik Məsələləri Komitəsinin üzvüdür [15]. Maraqlıdır ki, bir tərəfdən Azərbaycanın tarixi torpaqla-

rına iddialar ortaya qoyan təşkilata rəhbərlik edən Vilen Qabrielyan digər tərəfdən Azərbaycanla sülhdən, Bakıda yaşamaq istəməsindən, vaxtilə tarixi Qərbi Azərbaycan torpaqlarında – indiki Ermənistanda yaşayan azərbaycanlıların öz tarixi yurdlarına dönə bilməsindən danışır.

Təşkilatın 2023-cü il dekabrın 20-də Ermənistan Tarixi Muzeyində keçirdiyi toplantılardan biri "tarixi" Ermənistanın "itirilmiş ərazilərində" erməni mədəni irsinin təqdimatına həsr olunmuşdur. "İtirilmiş Girdiman, Şirvan və Naxçıvanda şəxsiyyət izləri" adlı tədbirlə paralel konkret olaraq Naxçıvana erməni iddialarını əks etdirən sərgi də açılmışdır. Sərginin rəsmi açılış mərasimində nazir müavinləri Alfred Koçaryan, Artur Martirosyan və Daniel Danielyan, həmçinin Milli Assambleyanın deputatları, rəsmi şəxslər, mədəniyyət xadimləri iştirak etmişdilər. Sərgidə nümayiş olunan xəritələr Naxçıvanın əraziləri ilə bağlı konkret iddiaları əks etdirir. Azərbaycan maddi mədəni irsinin nümunələri olan orta əsr abidələrinin şəkilləri, xalçalar, zərgərlik məmulatları ermənilərə aid nümunələr kimi nümayiş etdirilmişdi [24].

2024-cü ilin yanvarında Avropa parlamentində keçirilən "Dağlıq Qarabağın mədəni və dini irsinin qorunub saxlanması" adlı tədbirdə "Girdiman-Şirvan-Naxçıvan Ümumerməni Birliyi"nin nümayəndələri guya XX əsrin 90-cı illərində ermənilərin Naxçıvanda da etnosidə məruz qalması ilə bağlı əsassız iddialarını səsləndirmiş, Naxçıvanda erməni irsinin dağıdılması barədə uydurma məlumatlar təqdim etmişdilər [22]. Halbuki XX əsrin 90-cı illərində Naxçıvanda yaşayan az sayda erməni əhalinin ərazini tərk etməyə məcbur edilməsi ilə bağlı bircə fakt da yoxdur. Erməni əhali Sovet İttifaqının dağılması ərəfəsində və ondan sonra bütün keçmiş ittifaq respublikalarında olduğu kimi iqtisadi şərtlər səbəbindən və ya öz milli baxışlarını nəzərə alaraq digər ərazilərə könüllü şəkildə köçmüşdü. Həmin dövrdə ermənilərin çox az qismi Ermənistana, böyük bir hissəsi isə Rusiya Federasiyasına və digər ölkələrə üz tutmuşdu. Eynilə XX əsrin 90-cı illərində ağır iqtisadi şərtlər səbəbindən Naxçıvandan, o cümlədən Azərbaycanın bir sıra digər bölgələrindən azərbaycanlıların özlərinin də Rusiya Federasiyasına və digər ölkələrə iş üçün miqrasiyası baş vermişdi.

**Naxçıvan tarixinin Ermənistandakı tədqiqat mərkəzləri tərəfindən saxtalaşdırılma cəhdləri**

Ermənistan Milli Elmlər Akademiyasının müxtəlif institutlarında Naxçıvanla bağlı araşdırmalar həmin tədqiqat müəssisələrinin profilinə uyğun olaraq aparılır. Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun müxtəlif şöbələrində erməni tarixi yazılarkən Azərbaycanın digər əraziləri kimi, Naxçıvanın qədim və orta əsrlər dövrü tarixi də saxtalaşdırılır, buranın tarixən guya ermənilərin yurdu olması ilə bağlı məlumatlar verilir ki, bunların heç bir əsası yoxdur. Tarix İnstitutunun direktoru Aşot Melkonyanın 2017-ci ildə nəşr edilmiş "Naxçıvan: əbədi vətən və məskən" adlı məqaləsində verilən fikirlər Ermənistanın rəsmi tarixşünaslıq kon-

sepsiyasında Naxçıvan mövzusuna yanaşmanın mahiyyətini başa düşməyə imkan verir [25, s. 13-15]. Regionun ən qədim dövr tarixindən bəhs edərkən A.Melkonyan yazır ki, Naxçıvan ərazisi Urartu çarlığına daxil olmuşdur. Bununla da o, həm Urartunu erməni dövləti, həm də Naxçıvanı tarixi erməni ərazisi kimi göstərməyə cəhd etmişdir ki, bu fikirlərin də heç bir əsası yoxdur. Əvvəla Urartu dövləti böyük bir ərazini əhatə edən və bir çox xalqların yaşadığı qədim dövrün imperiya xarakterli dövlətidir. Bu mənada müxtəlif tayfaların ittifaqı şəklində formalaşmış olan Urartunu SSRİ ilə müqayisə etmək olar. Vaxtilə Ermənistan da daxil olmaqla 15 respublikanı birləşdirən SSRİ-ni erməni dövləti olaraq xarakterizə etmək mümkün olmadığı kimi, Urartunu da ermənilərin dövləti hesab etmək olmaz. İkincisi, o zaman Kiçik Asiyanın cənub şərqində yaşayan ərmənlərin bu gün özlərini erməni kimi təqdim edən haylarla etnik baxımdan nə qədər qohum olmasının özü sual altındadır. Üçüncüsü, Urartunun mövcud olduğu illərdə indiki Naxçıvan ərazisinin onun tərkibinə daxil olmadığı, burada mövcud olan tamamilə fərqli bir dövlət qurumuna Urartu qoşunlarının hücum etməsini elə həmin dövrün qaynaqlarının özü təsdiqləyir. Urartu hökmdarı II Sardurinin hücumlarını əks etdirən tarixi kitabələrdən birində Manna ərazilərinə, xüsusilə Ağrı dağı ilə Göyçə gölü arasındakı ərazilərə dağıdıcı yürüşlərdən bəhs olunur, Naxçıvan və ətraf ərazilərdə Puluadi dövlət qurumunun mövcudluğu qeyd edilir. Kitabədə yazılır: *"Xalidi Tanrısı öz silahı ilə yürüşə çıxdı, dağlıq Puluadi ölkəsinin hökmdarı Kadiauya qalib gəldi"*. Qeyd etmək lazımdır ki, adıçəkilən kitabənin mətnini sovet-gürcü tarixçisi Qriqori Melikişvili 1960-cı ildə "Qədim dövr tarixinin xəbərləri" nəşrinin 3-cü nömrəsində nəşr edilmiş "Urartu Mixi yazıları" adlı əsərində rus dilində təqdim etmişdir [9, s. 9-11].

Məqalənin başqa bir yerində Aşot Melkonyan yazır ki, guya Ərəb xilafətinin regionu ələ keçirməsindən sonra erməni kilsəsi zəiflədilmiş, Naxçıvanda erməni kilsəsinə qarşı ərəblər tərəfindən təqiblər həyata keçirilmişdir. Bu fikrin də heç bir əsası yoxdur. Tam əksinə şimala doğru hərəkət etdikcə indiki Suriya ərazisində eləcə də Kiçik Asiyanın cənub-şərqində ermənilərlə qarşılaşan ərəblər onlara xüsusi şərait yaratmışdılar. Ərəb xilafəti əsas rəqibi olan Bizansda hakim ortodoks kilsəsinin diofizit xarakterini nəzərə alaraq monofizit Qriqorian kilsəsini dəstəkləmiş, ələ keçirilən ərazilərdə olan digər xristianların da monofizitliyə yönəlməsinə, Qriqorian kilsəsi ətrafında cəmləşməsinə çalışmışdır. Azərbaycan ərazisində yaşayan xristian türklərin, albanların qriqorianlaşdırılması prosesi məhz Ərəb Xilafətinin himayəsi altında baş vermişdir. Alban diofizit kilsəsinin Bizansa arxalanmasının Ərəb xilafətinə xoş gəlməməsinin nəticəsində ilk dəfə ərəblər dövründə Alban kilsəsi Qriqorian kilsəsinin arxiyepiskopluğuna çevrilmişdi. Deməli, A.Melkonyanın ərəblərin guya Naxçıvanda erməni kilsəsini sıxışdırması barədə yazdıqları uydurmadan başqa bir şey deyildir.

Tarix İnstitutunun direktorunun XVII əsrin əvvəllərində Səfəvi şahı I Abbasın guya erməni əhalisini Culfa və Naxçıvandan İranın daxili vilayətlərinə sürgün etmə-

si ilə bağlı iddiaları da əsassızdır. Bəs əslində məsələnin mahiyyəti nədən ibarətdir? Həqiqət odur ki, I Şah Abbas Səfəvi-Osmanlı müharibələri zamanında Osmanlı ordusunun davamlı hücumlarının qarşısını almaq üçün Culfa və Naxçıvan əhalisinin indiki İranın daxili vilayətlərinə köçürülməsi barədə göstəriş vermişdir [6, s. 81]. Yeni Culfa şəhəri də məhz I Şah Abbasın göstərişi ilə bu məqsədlə yaradılmışdır. Fransız səyyahı J.Tavernyenin qeydlərindən aydın olur ki, o zaman Naxçıvan və Culfadan 27 min ailə imperiyanın digər ərazilərinə köçürülmüşdü [11, s. 80]. Lakin məsələ ondan ibarətdir ki, orta əsr şərtlərində 27 min ailənin 1091 kilometr məsafəni qət etməsi mümkün deyildi. Müasir dövrün şərtlərində sərbəst hərəkət edən bir insan bu məsafəni orta hesabla 246 saata qət edə bilər. Nəzərə alsaq ki, köçürülənlərin içərisində uşaq, qadın, ahıllar da var idi, erməni "tədqiqatçı"larının bu fikrinin məntiqi əsasını tapmaq çətindir. Tədqiqatlar göstərir ki, Şah Abbasın göstərişi ilə İsfahan yaxınlığında Culfa şəhəri salınsa da, buraya Naxçıvan Culfasının əhalisi köçürülməmişdir. Əhalinin köçürülməsi mərhələli şəkildə aparılmış, Culfa əhalisi Qaradağ, Təbriz istiqamətinə, Təbrizdən əhalinin müəyyən qismi Qəzvin istiqamətinə köçürülmüşdür. Qəzvindən indiki İranın daxili vilayətlərinə doğru əhali yerdəyişmələri olmuş, köç prosesi bu şəkildə baş vermişdir. Nəticə olaraq deyə bilərik ki, indiki İsfahan yaxınlığındakı Yeni Culfada məskunlaşmış ermənilər üçün "orta əsrlər dövrünün ana vətənini" Naxçıvan ərazisində deyil, İranın daxili vilayətlərində axtarmaq daha doğru olardı. Unutmamaq lazımdır ki, hətta köçürmənin birbaşa olduğuna inanan bir sıra rus və Qərbi Avropa tarixçilərinin verdikləri məlumatlar belə ciddi fərqə malikdir və köçürmə deyil, əhalinin mərhələli yerdəyişməsi olduğunu təsdiq edir. Məsələn, İ.P.Petruşevski göstərir ki, Culfadan İsfahan ətrafına 15 min ailənin köçürülməsi nəzərdə tutulurdu, lakin yalnız 3 min ailə İsfahana gəlib çıxmışdı [18, s.277]. Beləliklə, faktlar Aşot Melkonyanın bu iddialarının da əsassız, dolaşıq və saxta olduğunu göstərir. Məqalədə bu cür saxtakarlıqlar onlarladır.

Ermənistan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda Naxçıvanla bağlı əsas tədqiqatlara baş elmi işçi Arqam Ayvazyan rəhbərlik edir. O, Naxçıvan ərazisində mövcud olmuş abidələrin tarixinin saxtalaşdırılması, türklərə, xüsusən qıpçaqlara aid olan bir sıra abidələrin erməni abidəsi kimi elmi ictimaiyyətə tanıdılması istiqamətində məqalələr yazır. Arqam Ayvazyan bu fəaliyyətləri təkcə Ermənistan səviyyəsində deyil, onun sərhədlərindən kənarda da aparır. 2007-ci il noyabrın 2-dən 19-dək Harvard Universitetində onun Naxçıvan tarixi ilə bağlı saxta tədqiqatlarını əks etdirən əsərlərin sərgisi keçirilmişdi. 2023-cü il oktyabrın 13-də Ermənistanın Tarix Muzeyində "Naxçıvanın maddi irsi. Abidələr" adlı tədbirdə Arqam Ayvazyanın əsassız mülahizələri müzakirəyə çıxarılmış, eramızdan əvvəl III minillikdən XX əsrə qədər Naxçıvanda yaradılan maddi mədəni irsin Ermənilərə məxsusluğu iddia olunmuşdur [26].

EMEA-nın M.Abeğyan adına Ədəbiyyat İnstitutunda da Naxçıvanla bağlı müəyyən tədqiqatlar aparılır. İnsitutun xarici ədəbiyyat, ədəbi əlaqələr və ədəbiyyat

nəzəriyyəsi şöbəsinin böyük elmi işçisi Gohar Karagözyanın 2019-cu ildə nəşr etdirdiyi "Naxçıvan Avropalı səyyahların qeydlərində (XII-XVII əsrlər)" adlı əsərində təkcə Naxçıvan tarixinin erməniləşdirilməsi üçün tarixi mənbələri saxtalaşdırmaqla qalmamış, həm də bu mövzuda yazan Azərbaycan tədqiqatçılarını əsassız şəkildə ittiham etməyə cəhd göstərmişdir [17, s. 52].

Ermənistanda Mesrop Maştos adına Qədim Əlyazmaların Elmi Tədqiqi İnstitutunda da Naxçıvanla bağlı araşdırmalar aparılır. Bu tədqiqatlar əsasən Naxçıvan tarixinə dair yazılı qaynaqların və regionun orta əsrlər dövrü tarixinin saxtalaşdırılmasına yönəlmişdir. 2019-cu ildə Lilit Əmircanyanın «Artsax-Utik və Naxçıvan minatürləri" adlı məqaləsində [20, s.29-36], Lusine Tumanyan, Arpenik Qazarosyanın birgə yazdıqları "Naxçıvan yazı mərkəzləri (qısa icmal)" adlı məqalələrində Naxçıvan tarixinin saxtalaşdırılması ilə bağlı bir sıra əsassız məlumatlar qeyd edilmişdir [23, s. 27-37].

**Erməni Qriqorian kilsəsi və Naxçıvana əsassız iddialar**

Naxçıvana qarşı əsassız ərazi iddialarının dini ideoloji bazası isə Qriqorian Kilsəsi tərəfindən formalaşdırılır. Qriqorian kilsəsi Naxçıvanı xristianlığın Qafqazdakı mühüm mərkəzlərindən biri kimi təqdim etməklə məkrli məqsədlər güdür. Bu təbliğatla paralel erməniləri Qafqazda və dünyada xristianlığı ilk qəbul edən xalq kimi təqdim edir. Naxçıvan şəksiz ki, bəşər sivilizasiyasının əsas mərkəzlərindən olduğu kimi, islamaqədərki dövrdə həm də Qafqazda xristianlığın yayıldığı ərazilərdən biri olmuşdur. Lakin bölgənin xristian əhalisinin indi özlərini erməni adlandıran haylarla heç bir əlaqəsi yoxdur. Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış albanların, eyni zamanda Borçalı – Naxçıvan zolağı boyunca yayılmış qıpçaq türklərinin xristian olması faktı bu baxımdan unudulmamalıdır.

1991-ci ildən sonrakı illərdə Qriqorian kilsəsinin ruhaniləri ən müxtəlif məqsədlərlə keçirilən toplantılarda Naxçıvanla bağlı əsassız iddialarını bəyan edirlər. Ermənilərin ali patriarxı və katolikosu II Qaregin kilsə bayramlarında "Naxçıvandakı hansısa məhv edilmiş xaçkarların nidasının Allah tərəfindən eşidilməsi" üçün dualar edir [8]. Faktiki olaraq isə Naxçıvan ərazisində heç bir erməni xaçkarı mövcud deyildir.

Ermənistanla Azərbaycan arasında 44 günlük müharibənin başa çatmasından sonra Qriqorian kilsəsinin rəsmi internet saytında yerləşdirilən müraciətlərdən birində guya Qarabağda Azərbaycan tərəfindən kilsələrin dağıdılması ilə yanaşı Naxçıvanla bağlı da əsassız məlumatlar verilmişdi. Həmin müraciətdə yazılmışdı:

*"Azərbaycanda və onun tərkibində olan Naxçıvan Muxtar Respublikasında onilliklər boyu müxtəlif formalarda həyata keçirilən mədəni soyqırımı siyasətini Azərbaycanın himayədarı Türkiyənin addımlarından sonra davam etdirməsi yolverilməzdir" [13].*

2021-ci il mart ayının 3-də II Qaregin "Ermənistan yaylasında və ona bitişik ərazilərdə yaşayan xalqların xristian tarixi və mədəni irsi" adlı onlayn simpozium-

da Azərbaycanın digər əraziləri ilə yanaşı, Naxçıvanla bağlı da əsassız iddiaları təkrarlamışdı. Ön Asiya yaylasının bir hissəsi sayılan Kiçik Asiya yaylasını Erməni yaylası şəklində adlandıran II Qaregin bununla da bir neçə ölkənin ərazisinə kilsə iddialarını dilə gətirmişdi. Katolikos demişdi: *"Naxçıvandakı çoxəsrlik erməni qəbiristanlığında çoxsaylı xaçkarların (xaç daşlarının) tamamilə dağıdılması və beynəlxalq ictimaiyyətin buna qeyri-mütənasib reaksiyası Azərbaycanda mədəni soyqırımın cəzasız qala biləcəyini düşünməyə əsas verib" [12].*

Ermənistanda – Eçmiədzində (Üçkilsədə) Bütün ermənilərin ali patriarxı və katolikosu II Qareginin himayəsi altında 2021-ci ilin sentyabrında keçirilən "Beynəlxalq din azadlığı və sülh" mövzusunda konfransın sonunda qəbul edilmiş bəyanatda da Naxçıvanla bağlı Qriqorian kilsəsinin saxta iddiaları əksini tapmışdı. Konfrans iştirakçıları adından yayılan, əslində isə Ermənistan xüsusi xidmət orqanlarının tövsiyəsi və iştirakı ilə tərtib edilmiş bəyanatda yazılırdı ki, *"Culfa, Naxçıvan və Azərbaycanın digər yerlərində ermənilərə aid dünya əhəmiyyətli tarixi məkanların sistematik şəkildə silinməsi ilə bağlı əsaslandırılmış hesabatlar narahatlığımızı daha da artırır" [4].*

Yazılanlar cəfəngiyyatdan başqa bir şey deyildi. Adıçəkilən ərazilərdə hər hansı erməni abidəsinin olmaması faktiki olaraq onların "sistematik silinməsi"ni də mümkünsüz edirdi.

II Qareginin dəstəyi, Şimali Amerika Erməni Kilsəsinin Qərb Yeparxiyasının primatı arxiyepiskop Hovnan Derderyanın təşkilatçılığı ilə 2022-ci ilin noyabrında ABŞ-ın Los-Anceles şəhərində "Dağlıq Qarabağ: bu gün və sabah" adlı konfrans keçirilmiş, həmin toplantıda kilsə xadimləri tərəfindən yenidən Naxçıvanla bağlı əsassız və uydurma məlumatlar səsləndirilmişdi. Qeyd edilirdi ki, guya *"1997-2006-cı illərdə Naxçıvanın bütün ərazisində 89 kilsə, 6000-ə yaxın xaç daşı və 22000-dən çox məzar daşı dağıdılmışdır" [1].*

2023-cü ilin sentyabrında II Qaregin Hyu MakDermott və Pim Ceymsin başçılıq etdiyi Avstraliya əyalət parlamentarilərindən ibarət nümayəndə heyəti ilə görüşdə yenidən Naxçıvanla bağlı saxta məlumatlardan istifadə etmiş, bu dəfə o Avstraliyalı parlamentariləri Eçmiədzində qəbul edəkən onlara *"Naxçıvanın çoxəsrlik erməni qəbiristanlığında 6000-ə yaxın xaçkarının Azərbaycan hakimiyyətinin gözü önündə tamamilə dağıdılması"* barədə yalan informasiya vermişdi [5]. Bir həftə sonra II Qareginin Avropadan gəlmiş arxiyepiskop Kastin Uelbi ilə görüşündə Naxçıvanda guya "məhv edilən", əslində isə heç bir zaman mövcud olmayan xaçkarların sayı 5000 olaraq göstərilirdi [3].

**Xarici ölkələrdə yerləşən tədqiqat mərkəzlərində çalışan ermənilərin Naxçıvanla bağlı əsassız iddiaları**

Xarici ölkələrdə fəaliyyət göstərən bir sıra araşdırma mərkəzlərində çalışan ermənilər də tədqiqatlarında Naxçıvana qarşı ərazi iddiaları irəli sürür, Naxçıvanın

“erməni tarixi”ni uydurmağa çalışırlar. Belə müəlliflərdən biri İranda doğulan erməni tarixçi Vrej Nersesyandır. Ermənistan Respublikası Milli Elmlər Akademiyasının fəxri doktoru olan Vrej Nersesyan Britaniya kitabxanasının Xristian Yaxın Şərq, Şərq kolleksiyaları, əlyazmalarının nəşri üzrə məsul şəxsdir. O, 2001-ci ildə Britaniya Kitabxanasında keçirilən “Gəminin xəzinələri” (Nuhun gəmisi nəzərdə tutulur – E.K.) sərgisinin təşəbbüskarlarından olmuşdu. Sərgidə uydurma “erməni soyqırımı” hadisələri ilə bağlı geniş təbliğat aparılmış, bundan əlavə Türkiyənin sərhədləri daxilində olan Ağrı dağının və ətraf bölgələrin, deməli həm də Naxçıvanın ermənilərin ana vətəni olması ilə bağlı fikirlər səsləndirilmişdi [7, s. 114]. Sərginin açılışında İngiltərənin keçmiş xarici işlər naziri və Leyborist Partiyasının parlamentdə deputatı olmuş Robin Kuk, Ermənistanın ilk prezidenti olmuş Levon Ter-Petrosyan, Bütün ermənilərin ali patriarxı və katolikosu Qareginin iştirak etməsi bir tərəfdən Ermənistan dövlətinin bu cür ərazi iddialarına dəstək verdiyinin, digər tərəfdən dünyanın müxtəlif ölkələrində ictimai rəyi buna hazırlamağa çalışdığının göstəricisi hesab edilə bilər.

Vrej Nersesyanın 2001-ci ildə çap etdirdiyi “Gəmidən Xəzinələr: Erməni Xristian İncəsənətinin 1700 İlliyi” adlı kitabda Naxçıvanın guya ermənilərə aid olması ilə bağlı müxtəlif birbaşa və dolayı məlumatlar yazılmışdır. Kitabın 62-ci səhifəsində 1826-1828-ci illərdə Rusiya imperiyası tərəfindən İrəvan və Naxçıvan xanlıqlarının işğal edilməsi “Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi” kimi təqdim olunmuşdur [10]. Kitabın 132-133-cü səhifələrində Naxçıvan ərazisində yerləşən Əylisdən, burada guya erməni dilinin xüsusi ləhcəsində danışan və özlərini zakari və ya zok adlandıran ermənilərin mövcudluğundan bəhs edilir. Əslində isə araşdırmalar göstərir ki, ermənilərin zakari və ya zak şəklində yazdıqları Əylis və ətraf ərazilərdə məskunlaşmış qrup erməni olmayıb, sonradan xristianlığı qəbul etmiş sak türklərinin nəsilləri olmuşdur. Etnonimdən də göründüyü kimi onlar özləri “z/sak”, “z/sak əri” – yəni “sak igidi”, “igid sak” adlandırmışlar. Harvard Universitetinin professoru Bert Vaux “Zok: Əylisin Erməni dialekti” məqaləsində zokları ermənilərin bir hissəsi olaraq təqdim etməsinə baxmayaraq yazır: “*Zok Standart Şərqi Erməni dilində danışanlar üçün tamamilə anlaşılmazdır və buna görə də ayrıca dil hesab olunur. Bu dildə danışanlar onu zokerēn “Zok dili” adlandırırlar. Zok erməninin digər növlərindən çox fərqli olduğu üçün erməni icmasında onun təbiəti və mənşəyi haqqında çoxlu miflər yaranmışdır. Ən çox yayılan fikir budur ki, zoklar yarı erməni, yarı yəhudi tacirləridir və kənar adamların onların işgüzar münasibətlərini başa düşə bilməməsi üçün qəsdən gizli bir dil yaratmışlar” [14, s. 284].* Bu etirafları etsə də müəllif göstərmir ki, zokerlər əslində sonradan xristianlığı və qriqorianlığı qəbul etmiş saklardır. Onların isə kök etibarilə özlərini erməni adlandıran haylara heç bir aidiyyəti yoxdur.

Deməli, Vrej Nersesyan bir tərəfdən Əylisi erməni yurdu kimi təqdim etməklə Naxçıvana olan iddiaları tarixi zəmində əsaslandırmağa çalışır, digər tərəfdən sak-

ərləri zoker etməklə, onları isə erməni qruplarından biri kimi təqdim etməklə bölgənin sakaların tarixini saxtalaşdırır.

Suriyada yaşayan erməni müəllifləri də Naxçıvanla bağlı müxtəlif kitablar yazır və çap etdirirlər. Belə müəlliflərdən biri Suriya ermənisi Avo Qatırçıyandır. Onun 2006-cı ildə yazdığı "Ermənistan Naxçıvanı və ya təhrif olunmuş Naxçıvan" adlı kitab Naxçıvanla bağlı iddiaların təkcə Ermənistan sərhədləri ilə məhdudlaşmadığını, bütün dünyadakı ermənilər üçün "ümumerməni işi"nin tərkibinə çevrildiyini göstərir. Avo Qatırçıyanın 10 bölmədən ibarət olan 95 səhifəlik kitabında sovet lideri İosef Stalinin hakimiyyəti dövründə Naxçıvanda guya erməni abidələrinin dağıdılmasından, Naxçıvanın "hiyləgər" beynəlxalq paktlarla qurban verilməsindən, regionda əslində heç zaman mövcud olmayan hansısa "erməni irsi"nin məhv edilməsindən bəhs olunur. Aydındır ki, bu cür məlumatların və hazırlanmış mətnlərin çoxu Avo Qatırçıyana Ermənistandan ötürülmüşdü. 2023-cü ilin oktyabrında Avo Qatırcıyanın əsərlərinin İrəvanda Qərbi Ermənistan Problemlərinin tədqiqi mərkəzində təqdimat mərasimi keçirilmişdi. Təqdimatda çıxış edən Qərbi Erməni Problemlərinin Araşdırılması Mərkəzinin direktoru, filologiya elmləri doktoru, ermənişünas Haykazun Alvrçyan Avo Qatırçıyanın bu işi davam etdirməsinin ermənilər üçün faydalı olduğunu söyləmişdi [21]. Mərasimdə Ermənistanın Suriya Ərəb Respublikasında vaxtilə səfiri olmuş Arşak Poladyanın və Suriyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri olmuş Nora Arisyanın iştirak etməsi də Avo Qatırcıyanın əsərlərinin Ermənistan dövlətinin dəstəklədiyi məqsədli bir layihə olduğunu göstərir.

Naxçıvanın tarixi mədəni irsinin saxtalaşdırılması ilə bağlı tədqiqatların həyata keçirildiyi mərkəzlərdən biri də Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Rubina Ermənilərinin Yardım Cəmiyyətidir. Cəmiyyətin ənənəvi olaraq reallaşdırdığı layihələrdən biri "Dohmiq Or" və yaxud "Miras günü" layihəsidir. 20 ildən artıqdır ki, keçirilən "Miras günü" layihəsi çərçivəsində hər il ermənilər iddia etdikləri bir ərazini seçir və o ərazinin mədəniyyəti, tarixinin ermənilərə məxsusluğu ilə bağlı təbliğat işləri həyata keçirirlər. Bunun üçün konfranslar təşkil olunur, kitablar və bukletlər nəşr edilir, şəkillər və videolar toplanır, internet resurslarında yerləşdirilir. 2017-ci ildə belə ərazi kimi Azərbaycanın Naxçıvan Muxtar Respublikası seçilmiş, Torontoda bununla bağlı müxtəlif tədbirlər keçirilmişdi [2]. Bu çərçivədə çap olunan kitablardan birində Ermənistandan və digər ölkələrdən olan erməni müəlliflərinin məqalələrinə yer verilmişdi. Xüsusən Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru Aşot Melkonyanın "Naxçıvan: əbədi vətən və məkən" [25, s. 13-15], Ermənistan Respublikasının Diaspora İşləri üzrə Komissarının ofisinin şöbə müdiri Hovhannes Aleksanyanın "Naxçıvan: tarixi icmal" [19, s. 121-125] adlı məqalələri saxtakarlıq cəhətdən xüsusən diqqəti cəlb edir. Aşot Melkonyanın məqaləsində absurd şəkildə "Naxçıvanın tarixi Ermənistanın mərkəzi hissəsində yerləşdiyi" qeyd olunur. Bu isə nəinki Azərbaycan ərazilərinə, hazırda İran İslam Respublikasının sərhədləri daxilində qalan ərazilərə də iddialar irəli sürmək deməkdir.

**Nəticə**

Aparılan təhlillər bir sıra qənaətlərə gəlməyə imkan verir. Aydın olur ki, Ermənistan ərazisində Naxçıvanla bağlı bir sıra ictimai birliklər və təşkilatlar fəaliyyət göstərir. Onlar əsasən Ermənistan dövləti tərəfindən açıq və ya gizli şəkildə dəstəklənir, fəaliyyətləri maliyyələşdirilir. Bu cür təşkilatlar əslində Ermənistan dövlətinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına olan iddialarının qeyri-rəsmi ifadə edirlər. Belə təşkilatlara müxtəlif millət vəkilləri, vaxtilə xüsusi xidmət orqanlarında xidmət etmiş şəxslər rəhbərlik edirlər.

Ermənistan Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən tədqiqat institutları da Naxçıvanla bağlı tədqiqatlar aparırlar. Bu araşdırmalar əsasən Naxçıvanın tarixinin saxtalaşdırılmasına, əsassız iddiaların tarixi kontekstdə şərh olunmasına yönəlmişdir.

Qriqorian kilsəsinin Naxçıvanla bağlı apardığı təbliğatın əsas xəttini ermənilərin dünyada rəsmi olaraq, Qafqazda isə ümumiyyətlə xristianlığı qəbul edən ilk xalq olmaları ilə bağlıdır. Kilsə Naxçıvanı dini baxımdan qriqorianlığın və xristianlığın müqəddəs məkanlarından biri kimi göstərir. Məqsəd ermənilərin Naxçıvana əsassız ərazi iddialarına müqəddəslik donu geydirməkdir.

Ermənistan dövləti və spuyrk xarici ölkələrdəki tədqiqat mərkəzlərində işləyən erməni və qeyri-erməni alimlərinin Naxçıvanla bağlı tədqiqatlarını təşviq edir. Başlıca məqsəd əsassız iddiaların beynəlxalq elmi mühitdə ortaya qoyulması, ictimai rəyin çaşdırılması, Ermənistanın təcavüz və işğal siyasətinə don geyindirilməsidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. “A conference entitled «Nagorno Karabakh Today and Tomorrow» was held: [Digital resource] / Armenian Church, December 01. -2022. URL: https://beta.armenianchurch.org /en/news/the-international-conference-entitled-listening-to-the-east-congregationalism-in-the-eastern-orthod/10399

2. Armenian Relief Society.»Roubina» Chapter: [Digital resource] / Armenian Community Centre of Toronto, -2023. URL: https://www.acctoronto.ca/organizations/armenian-relief-society/

3. Catholic, Anglican bishops affirm support for Armenia: [Digital resource] / Vatican News, October 06. URL: www.vaticannews.va/en/church/news/2023-10/catholic-bishops-archbishop-of-canterbury-armenia-support.html

4. Conference : International Religious Freedom and Peace 9-10 September 2021, Mother See of Holy Etchmiadzin, Armenia Communiqué: [Digital resource] / Armenian Church, -2021. September 13. URL: https://beta.armenianchurch.org/en/news/conference-communiq/10039

5. Karekin II: Armenian spiritual and cultural heritage of Karabakh is at risk: [Digital resource] / News Armenia, –2023. URL: https://news.am/eng/news/783976.html

6. Kəlbizadə, E.H. Naxçıvanın tarixi-coğrafiyası (XII-XVIII əsrin I yarısı) / -Naxçıvan: Əcəmi, -2016, -200 s.
7. Laçıner, S., Bal, İ. İngiltere ermenileri: lobbiçilik ve ermeni sorunu // Ermeni araştırmaları, –2002. Cilt 2, Sayı 7, –s. 71-120.
8. Message of His Holiness Karekin II on the Occasion of the Feast of the Glorious Resurrection of Christ: [Digital resource] / Armenianchurch, –2006. URL: https://beta.armenianchurch.org/en/news/Message-of-His-Holiness-Kare kin-II-on-the-Occasion-of-the-Feast-of-the-Glorious-Resurrection-of-Christ/464
9. Naxçıvan tarixinə dair qaynaqlar / Tərt. ed. İ.M.Hacıyev, E.H.Kəlbizadə. –Naxçıvan: Elm və təhsil, 2018. –238 s.
10. Nersesian, V. Treasures from the Ark. 1700 years of Armenian Christian Art / V.Nersesian. London: THE J. Paul Getty Museum, –2001. –240 p.
11. Tavernier J.B. Tavenier Seyahatnamesi. Editör: Stefanos Yerasimos, Çeviren: Teoman Tunçdogan, İstanbul:Kitap Yayınevi, 2006, -s. 80.
12. The Catholicos of All Armenians Participated in the Online Symposium Entitled «Christian Historical and Cultural Heritage of the Peoples Living in the Armenian Highlands and Adjacent Territories»: [Digital resource] / Armenian Church, -2021, March 03. URL: https://beta.armenianchurch.org/en/news/the-catholicos-of-all-armenians-participated-in-the-online-symposium-entitled-christian-historical/10014
13. The Mother See strongly condemns: [Digital resource] / Armenian Church, –November 14, 2020. URL: https://beta.armenianchurch.org/en/news/the-mother-see-strongly-condemns/4451
14. Vaux, B. Zok: The Armenian dialect of Agulis // In Between Paris and Fresno: Armenian studies in honor of Dickran Kouymjian / Ed. Barlow Der Mugrdechian. -Costa Mesa: Mazda Publishers, -2008. –p. 283-301.
15. Будет запущена новая платформа для инвентаризации имущественных потерь вынужденных переселенцев из Азербайджана. URL: https://armenpress.am/rus/news/1125121.html. 28.11.2023.
16. ВсеармянскийсоюзГардман-Ширван-Нахиджеванзапамятовалосделке Пашинян-Алиев 7 декабря, 2023. URL: www.lragir.am/ru/2023/12/20/260996/.
17. Карагезян, Г. Л. Нахичеван в записках европейских путешественников (XIII – XVII вв.) / Г.Л.Карагезян. -Ериван: Изд-во «Гитутюн» НАН РА, -2019. –250 с. –с.. 52.
18. Пигулевская Н., Якубовский А., Петрушевский И., Строева Л., Беленицкий Л. История Ирана с древнейших времен до конча 18 века. Ленинград, 1958., -s. 277.
19. Ալեքսանյան Հ, Նախջիեվան պատմական ակնարկ (Aleksanyan H, Naxçıvan tarixinə baxış), – // Տոհմիկ Օր Ձոնուած՝Նախիջեվանին եւ Հինգ Գաւառներուն՝ Գողթան, Երնջակ, Նախիջեւան, Ճահուկ-Շահապոնք,

Շարուր (Naxçıvan və Beş Vilayətə həsr olunmuş Qəbilə Günü: Qoğtan, Yernjak, Naxçıvan, Çahuk-Şahaponk, Şərur), 28 Հօկտեմբեր, 2017, էջ 121-125
20. Ամիրջանյան Լիլիթ, Արցախ-Ուտիքի եւ Նախիջեւանի մանրանկարչությունը (Əmircanyan Lilit, Artsax-Utik və Naxçıvan miniatürləri), ISCIENCE.IN.UA. «Актуальные научные исследования в современном мире», Переяслав-Хмельницкий, 2019, оqnuunu, LII, էջ 29-36:
21. Անումյան, Մ. Սիրիահայ մտավորական Ավո Գաթրջյանի գրքերը ներկայացվեցին Արեւմտահայոց հարցերի ուսումնասիրության կենտրոնում (Anumyan, M. Qərbi Ermənistan problemlərinin tədqiqi mərkəzində Suriya erməni ziyalısı Avo Qatrjyanın kitablarının təqdimatı keçirilib): [Էլեկտրոնային ռեսուրս] /Yerkir.am, 2023. URL: https://yerkir.am/hy/article/2023/10/25/20032 .
22. Գարդման-Շիրվան-Նախիջևան համահայկական միությունն անդրադարձել է ԼՂ-ում մշակութային սպանդը կանխելու՝ ԵԽ քննարկմանը (Qardman-Şirvan-Naxıcevan ümumerməni birliyi Dağlıq Qarabağda mədəni qırğınların qarşısını almaq üçün Nazirlər Şurasının müzakirəsinə istinad etdi.): [Էլեկտրոնային ռեսուրս] / Armenpress, -2024. URL: https://www.armenpress.am/arm/news/1129007.html?fbclid=IwAR0mWH4yg5BVLFdWiUjFceJ5AmVeNaxyXozMyJn1xUoY3ZjZKltmOEnDxQ4
23. Թումանյան Լուսինե, Արփենիկ Ղազարոսյան, Նախիջևանի գրչության կենտրոնները. (համառոտ ակնարկ) (Lusine Tumanyan, Arpenik Qazarosyan, Naxçıvan yazı mərkəzləri. (qısa icmal), «Աստվածաբանական և կրոնագիտական հոդվածների ժողովածու» ("İlahiyyat və Dinşünaslıq Məqalələri Toplusu" 2021, 6, 27-37:
24. Ինքնության մասունքներ կորուսյալ Գարդմանից, Շիրվանից և Նախիջևանից խորագրով ժամանակավոր ցուցադրություն (İtirilmiş Qardman, Şirvan və Naxçıvandan şəxsiyyət yadigarları adlı müvəqqəti sərgi). Ermənistan Elm Təhsil, İdman və Mədəniyyət Nazirliyinin saytı. URL: https://escs.am/am/news/19776. 20.12.2023.
25. Մելքոնյան Ա, Նախիջևան Հավերժական Հայրենիք ու Կենսատարածք (Melkonyan A, Naxçıvan əbədi vətən və yaşayış yeri), – // Տոհմիկ Օր Զոնուած՝Նախիջեվանին եւ Հինգ Գաւառներուն՝ Գողթան, Երնջակ, Նախիջեւան, Ճահուկ-Շահապոնք, Շարուր (Naxçıvana və beş vilayətə həsr olunan şəcərə günü: Qoğtan, Yernjak, Naxçıvan, Çahuk-Şahaponk, Şərur), 28 Հօկտեմբեր, 2017, էջ 13-15.
26. Նախիջեւանի նյութական ժառանգությունը. Հուշարձաններ (Naxçıvanın maddi irsi. Abidələr) URL: https://historymuseum.am/event-item/%d5%b6%d5%a1%d5%ad%d5%ab%d5%bb%d6%87%d5 %a1%d5%b6%d5%ab-%d5%b6%d5%b5%d5%b8%d6%82%d5%a9%d5%a1% d5%af%d5%a1%d5%b6-%d5%aa%d5%a1%d5%bc%d5%a1%d5%b6%d5%a3%d5%b8% d6%82%d5%a9%d5%b5%d5%b8%d6%82%d5%b6%d5%a8/ 2023-10-13.